**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

MAİLƏ HƏSƏNAĞA QIZI ALLAHVERDİYEVA

# XX ƏSR AZƏRBAYCAN POEZİYASINDA TƏMSİL

**5716.01 – Azərbaycan ədəbiyyatı**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin "Beynəlxalq əlaqələr və komparativistika" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Tərlan Cabbar oğlu Novruzov**
filologiya üzrə elmlər doktoru,professor

**Rəsmi opponentlər:** **Rafiq Yusif oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru,professor

**Tərlan Aslan oğlu Quliyev**
filologiya üzrə elmlər doktoru,professor

**Aparıcı müəssisə:** Bakı Dövlət Universiteti "Müasir Azərbaycan ədəbiyyatı" kafedrası.

Müdafiə "_21__" 10 2013-cü il saat ___$^{00}$ –da AMEA Nizami adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən D.01.131 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: Az-1143 Bakı şəhəri.H.Cavid prospekti 31.Akademiya şəhərciyi, əsas bina,V mərtabə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat ______________ 2013-cü il tarixdə göndərilmişdir.

Dissertasiya
Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru: **İmamverdi Yavər oğlu Həmidov**

# TƏDQİQAT İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Təmsil Azərbaycan ədəbiyyatında geniş yayılmış və ən maraqlı janrlardan biridir. Təmsilin tarixi bədii ədəbiyyatın tarixi qədər qədimdir. Onun özünəməxsus inkişaf yolu, zəngin ənənələri vardır. İstər Azərbaycan şifahi xalq yaradıcılığında, istərsə də klassik ədəbiyyatda təmsildən geniş istifadə olunmuşdur. Hələ səkkiz yüz il əvvəl ölməz Xaqani Şirvani, Nizami Gəncəvi, sonralar Məhəmməd Füzuli, A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani və başqaları bu janrda parlaq sənət nümunələri yaratmışlar. Lakin təmsil janrında yazılmış ideya-bədii cəhətdən ən mükəmməl əsərlər sonrakı dövrlərə, xüsusilə XIX əsrin sonu, XX əsrin əvvəllərinə aiddir.

Təkcə Azərbaycan ədəbiyyatında deyil, bütün dünya ədəbiyyatında təmsil qədər qədim tarixə malik olan ədəbi forma və janrların sayı çox deyildir. Qədim dövrlərin ən məşhur təmsilnəvisi Ezopdur (y.e.ə.VI-V əsrlər). Ezop yunan ədəbiyyatında xüsusi bir məktəb yaratmışdır... «Ezop dili» termini indii də işlənməkdədir[1]. O, təmsillərini nəsrlə yazmış, həyatdan götürdüyü mövzularla öz müasirlərinin məişətinə, əxlaqi-mənəvi aləmlərinə təsir etməyə çalışmışdır. İlk mənzum təmsil isə qədim dünyanın məşhur təmsilyazanlarından olan B.Fedrin qələminə məxsusdur (y.e.I əsri). O, Ezopdan öyrənmiş, onun süjetlərini dövrün tələblərinə uyğun yenidən işləmişdir. Orta əsrlərdə və intibah dövründə də təmsildən geniş istifadə olunmuşdur.

Təmsil əsərlərinin dili danışıq dilinə yaxın olur. Təmsildə satira, yumor və kinayədən, aforizm və hikmətli sözlərdən geniş istifadə edilir. Mücərrəd və ümumi məfhumlar konkret, əyani surətlərdə ifadə olunur. Əhvalatın inkişafında çox zaman oxucunun tələb və səviyyəsi də nəzərə alınır.

Bəzi ədəbiyyatşünaslar güman edirlər ki, təmsil yalnız uşaqlar üçün yazılır. Şübhəsiz ki, bu janr uşaq psixologiyası üçün daha müvafiqdir. Lakin
bunu heç də təkcə uşaq ədəbiyyatının spesifikası ilə məhdudlaşdırmaq olmaz. Bir sıra təmsillərdə dövrün, zamanın mühüm fəlsəfi,

---

[1] Mirəhmədov Ə.Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət,Bakı:Maarif,1992,s.68

siyasi-ictimai və əxlaqi problemləri öz əksini tapmışdır.

Uşaq ədəbiyyatının başlıca vəzifəsi cəmiyyətin gələcəyi olan gənc nəslin tərbiyəsi, onlara müsbət əxlaqi keyfiyyətlər aşılamaqdır. Bu ədəbiyyat böyüməkdə olan gənc nəslə müstəqillik ideyalarına məhəbbət, vətənpərvərlik və humanizm, əməksevərlik, dostluq və yoldaşlıq, düzlük və ədalət, özünə qarşı tələbkarlıq kimi yüksək mənəvi-əxlaqi keyfiyyətlər aşılayır.

Uşaqlara belə hisslər aşılanmasında təmsil janrının imkanları olduqca genişdir. Təmsil janrı tarixən çox qədim olsa da, Azərbaycan ədəbiyyatında onun formalaşma və çiçəklənmə dövrü XIX və XX əsrlərə təsadüf edir. Bu zamandan uşaqların sevə-sevə oxuduqları əsərlər sırasında təmsillər xüsusi mövqe tutmağa başlayır. Belə ki, təmsil özünün ideya məzmununa və surətlər aləminə görə uşaq ədəbiyyatının aparıcı janrlarından birinə çevrilir. Təmsillər maraqlı süjet xətti, daxili dinamizmi, yaddaqalan obrazları, tərbiyəvi xarakteri, cazibədar ruhu ilə uşaq qəlbinə çox yaxındır. Təmsil yığcam və maraqlı formada, sadə dillə gənc nəslə xeyirxah və ehtiyatlı olmağı öyrətməklə, həyatdakı naqisliklərə, şər qüvvələrə mənfi və tənqidi münasibət aşılamaqla onların tərbiyələnməsində mühüm rol oynayır [1].Ona görə də bu janrın tarixi təkamülünün və ədəbiyyatdakı funksiyalarının öyrənilməsi ədəbiyyatşünaslığımız qarşısında duran olduqca maraqlı, mühüm və aktual problemlərdən biridir.

**Mövzunun işlənmə dərəcəsi.** Həm Azərbaycan ədəbiyyatşünaslığına dair ümumi nəzəri tədqiqatlarda (M.Rəfili, C.Xəndan, Ə.Mirəhmədov, A.Hacıyev və b.), həm də ayrı-ayrı şəxsiyyətlərin yaradıcılığına həsr olunmuş monoqrafik tədqiqatlarda (F.Qasımzadə, K.Məmmədov və b.) Azərbaycan təmsilinin səciyyəvi xüsusiyyətlərindən, ayrı-ayrı ədəbi şəxsiyyətlərin bu işə verdiyi töhfələrdən söz açılmışdır. Eyni zamanda təmsilə həsr olunmuş ayrı-ayrı məqalə və araşdırmalar da vardır ki, bu yazılarda təmsilin satira və yumor yaradıcılığında tutduğu yer izah edilmişdir. Ə.Qarabağlı, S.Cəmşidov, F.Sadıq, F.Kərimovanın və başqalarının məqalələrini bu yöndən qiymətləndirmək mümkündür. Təmsilin uşaq ədəbiyyatında öyrənilməsi və qiymətləndirilməsi də diqqəti cəlb edir. Azərbaycan uşaq ədəbiyyatına aid bir sıra tədqiqat

[1] Adilov M, Mərdanov V. Uşaq və şeir. Bakı: Maarif, 1983,s.5

müəllifləri, o cümlədən C.Əhmədov, Q.Namazov, Z.Xəlil və b. təmsilin bu kontekstdə öyrənilməsi sahəsində mühüm işlər görmüş, təmsilin uşaq psixologiyası ilə bağlı janr kimi əhəmiyyətinə nəzər yetirmişlər. Həm ayrı-ayrı təmsil ustalarının, həm də uşaq ədəbiyyatı nümayəndələrinin kitabları haqqında məqalə və rəylərdə təmsilin səciyyəsinə, çağdaş ədəbiyyatda oynadığı rola, onun tənqidi xarakterinə xüsusi yer verilmişdir.

**Dissertasiya işinin obyekti və predmeti.** Tədqiqatın əsas obyektini istər Azərbaycan, istərsə də dünya ədəbiyyatında xüsusi yeri olan təmsil janrı, bu janra məxsus bədii əsərlər, təmsillə bağlı mənbələr və qaynaqlar təşkil edir. Bu məqsədlə XX əsr Azərbaycan təmsilinin mətnləri əsas kimi götürülsə də, təmsilin tarixi ilə bağlı qaynaqlara da müraciət edilmişdir.

Dissertasiya işinin əsas predmeti isə təmsilin bir janr kimi tarixi-təkamül proseslərinin, Azərbaycan ədəbiyyatındakı yeri və rolu kimi məsələlərin tədqidindən ibarətdir. Tanınmış Azərbaycan və dünya təmsilyazanlarının əsərlərinin öyrənilməsi, onların əsərlərinin əhəmiyyətinin müəyyənləşdirilməsi kimi problemlər də dissertasiyanın predmetinə daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan ədəbiyyatında təmsil janrının təşəkkülü və formalaşması prosesini işləmək, eyni zamanda bu prosesi şərtləndirən ictimai-siyasi, mədəni, ədəbi-tarixi amilləri müəyyənləşdirmək, XX əsrdə bu janrın inkişaf xüsusiyyətlərini və ədəbiyyatımızdakı mövqeyini aydınlaşdırmaqdan ibarətdir. Bu məqsədlə aşağıdakı vəzifələr müəyyən olunmuşdur:

**a)** Təmsil janrının qaynaqlarını aydınlaşdırmaq;

**b)** Təmsilin janr xüsusiyyətlərini müəyyənləşdirmək;

**c)** Şərqdə və Qərbdə təmsilin inkişaf xüsusiyyətlərini izləmək;

**d)** Azərbaycan təmsilinin inkişaf yollarını və tarixi-tipoloji qaynaqlarını araşdırmaq;

**e)** Milli uşaq təmsilimizin, xüsusən də M.Ə.Sabir, A.Səhhət, A.Şaiq və R.Əfəndiyevin yaradıcılığı əsasında onun Azərbaycan uşaq poeziyasındakı mövqeyini müəyyənləşdirmək;

**f)** Sovet və postsovet dövründə Azərbaycan təmsilinin inkişaf dinamikasını, ayrı-ayrı təmsilyazanların yaradıcılıq

xüsusiyyətlərini, həmçinin uşaq təmsilinin təcrübəsini və nailiyyətlərini müəyyənləşdirmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyada həm şifahi, həm də yazılı ədəbiyyatda təmsil yaradıcılığı ilə bağlı folklorşünaslıqda və ədəbiyyatşünaslıqda mövcud olan elmi-nəzəri fikirlərdən geniş şəkildə istifadə edilmişdir. Problemin tədqiqində tarixi-tipoloji və tarixi-müqayisəli təhlil metodları əsas götürülmüş, sistemli təhlil prinsiplərindən də istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Azərbaycan təmsilinə həsr olunmuş ilk sistemli tədqiqat işidir. Ədəbiyyatşünaslığımızda ilk dəfə olaraq təmsilin janr xüsusiyyətləri, onları şərtləndirən amillər müəyyənləşdirilmiş, onun təşəkkül prosesləri izlənmiş, Şərq və Qərb təmsilinin oxşar və fərqli cəhətləri göstərilmişdir. İlk dəfədir ki, təmsil həm yaşlı, həm də uşaq ədəbiyyatı nümunəsi kimi nəzərdən keçirilir. Eyni zamanda təmsilin ideya-məzmun və sənətkarlıq xüsusiyyətləri dissertantın diqqət mərkəzində dayanır. Gənc nəslin estetik tərbiyəsində təmsilin mühüm ictimai-mədəni əhəmiyyətini nəzərə alaraq, uşaq təmsilinin başlıca estetik-tərbiyəvi xüsusiyyətləri araşdırılıb, üzə çıxarılmışdır. XX əsr Azərbaycan ədəbiyyatında təmsilin başlıca tematikası, əsas motivləri müəyyənləşdirilmiş, janrın qarşısında duran aktual və vacib məsələlər vurğulanmışdır. Həmçinin XX əsrdə yaranmış təmsillərin nəşri və tədqiqi məsələləri də araşdırılmışdır.

**Mövzunun elmi-təcrübi əhəmiyyəti.** Tədqiqat işindən Azərbaycan ədəbiyyatı tarixi və uşaq ədəbiyyatına dair dərs vəsaitlərinin yazılmasında yararlanmaq mümkündür. İşdən həmçinin ali məktəblərin humanitar fakültələrində xüsusi kursların aparılmasında dəsr vəsaiti kimi istifadə oluna bilər. Əsərdən uşaq ədəbiyyatı mütəxəssisləri, orta məktəb müəllimləri də mənbə kimi faydalana bilərlər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları müəllifin çap etdirdiyi məqalə və tezislərdə, respublika elmi-metodiki və beynəlxalq konfranslardakı çıxışlarda təqdim edilmişdir. Iş AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Beynəlxalq əlaqələr və komparativistika şöbəsində yerinə yetirilmişdir.

**Tədqiqat işinin quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# İŞİN ƏSAS MƏZMUNU

**"Giriş"də** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, işlənmə dərəcəsi, elmi yeniliyi, tədqiq tarixi, nəzəri-metodoloji əsasları, elmi-praktik əhəmiyyəti müəyyən edilir, işin aprobasiyası və strukturu barədə məlumat verilir.

Dissertasiyanın **"Təmsil janrının təşəkkülü və inkişaf mərhələləri"** adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. Onlardan birincisində təmsilin qaynaqları və janr xüsusiyyətləri nəzərdən keçirilir.

Hər bir hadisənin, problemin nəzəriyyəsindən, tarixindən danışarkən onun mənşəyinə, söz sənətinin hansı ünsürlərindən yaranmasına nəzər salmaq çox mühümdür. Məsələyə belə yanaşmanın əhəmiyyəti ilk növbədə onunla ölçülür ki, bu prinsip məsələnin qədim qaynaqlarının müəyyənləşdirilməsinə nə dərəcədə kömək edə bilər. Problemin mənşəyinin aydınlaşdırılması isə öz növbəsində onun sonrakı inkişaf mərhələlərinin tədqiqinə yardım edir. Təmsil də, məlum olduğu kimi, söz sənətinin ən qədim janrlarından biridir və aşağıda görəcəyimiz kimi, ədəbiyyatda özünəməxsus bir janr kimi formalaşana qədər uzun bir təkamül prosesindən keçmişdir.

Etimoloji cəhətdən "təmsil" sözü ərəb dilindəki "məsəl" kökündəndir və "məsəl çəkmə", "məsəl gətirmə" mənasını verir. Ancaq islamın yarandığı dövrdəki ərəb ədəbiyyatında və Quranda haqqında söhbət gedən hər hansı bir hadisəyə aid məsəl gətirilərkən "təmsil" sözündən yox, "əsatir ül-əvvəlin" (hərfi mənası "birincilərin nağılları" deməkdir) ifadəsindən istifadə edilmişdir[1] .

Təmsildə təsvir edilən hadisələr onu heyvanlar haqqında nağıllara, əxlaqi məsələlər isə atalar sözləri və məsəllərə yaxınlaşdırır[2] .

Təmsilin əsas qaynaqları olan hekayət və atalar sözlərinin tarixi, təbii ki, təmsilin bir janr kimi formalaşmasından çox-çox qədimdir. Birincilər dilin yarandığı zamandan, insanlar arasında

---

[1] Quranda bax: 6,25; 8,31;b 16,26; 23,85

[2] Гаспаров М.Л. Басня //Литературный энциклопедический словарь.М. : Советская энциклопедия. 1987. С.46-47

nəsihət, mübahisə və sübut kimi halların yarandığı dövrdən mövcud olmuşlar. Nəsihətamiz hekayətlər Yaxın Şərqdə çox geniş yayılmışdı: belə hekayət mətnləri Şumer və Babil mixi yazılarında olduqca çoxdur[1] . Ancaq atalar sözləri ilə qarışıq halda işlədilən belə mətnlər Şərqdə kontekstdən ayrılıb, müstəqil janra çevrilə bilmədilər. Onlar müstəqil bir janr kimi ilk dəfə Yunanıstanda işlədilməyə başlandılar. Şərq hekayətlərində təmsilə məxsus janr xüsusiyyətləri də özünü dolğun şəkildə göstərə bilmirdi.

Qədim dövrün təmsili hələlik şifahi formada yaşayırdı, ancaq tezliklə o yazılı ədəbiyyata da sirayət edir[2]. Şifahi formada söylənilən təmsillərə də bir sıra yazılı mənbələrdə, o cümlədən Hesiodun (e.ə. VIII əsr) poemasında rast gəlinir. Varlı adamın özbaşınalıqları qarşısındakı çarəsizlikdən doğan acı düşüncələrini Hesiod bülbül və çalağan haqqındakı təmsildə təsvir etmişdir. Bu elmə məlum ilk təmsildir. [3] Herodotun tarix kitabında da belə təmsillər yazıya alınmışdır.[4] Bu təmsillərin mövzuları əsasən həmin mövzulardır ki, onlar sonrakı əsrlərdə də işlədilirdi. Onlarda surətlər heyvan obrazları, hərəkətlər mücərrəd və konkret zaman və məkan hüdudlarından kənardırlar. Bu təmsillər hələlik kontekstdən ayrılmamışlar, ancaq ayrılmağa çox yaxındırlar; xeyli nəsihətamiz süjetlər yaranmışdır. Beləliklə, onlar artıq ayrıca janr kimi formalaşmağa başlayırlar. Yunan təfəkküründə isə hər bir janrın öz təşəbbüskarı vardır: eposun banisi – Homer, Arxiloxdur. Təmsilin banisi isə e.ə. VI əsrdə yaşaması güman edilən Ezop olmuşdur.

Təmsili təsnif etmək üçün çox cəhdlər olmuşdur. Yunan ritoru (bəlağət müəllimi) Aftoni təmsili məntiqi, mənəvi və qarışıq növlərə bölür. Alman mütəfəkkiri Herder təmsilin iki növünü fərqləndirir: birinci - nəzəri və ya insanın əqli qabiliyyətlərini inkişaf etdirən və mənəviyyatla bağlı olan təmsillər, ikincisi qəzavü-qədəri və təsadüfi əks etdirən təmsillər. Herder də təmsili iki yerə ayırır: Böyük təmsildə sadəcə heyvanların həyatının təsviri verilir; kiçik təmsildə

---

[1] Емельянов В.В. Древний Шумер. Очерки культуры. СПб.:Петербургское Востоковедение,2001,с.171-177

[2] Collinet J.P. Le monde litteraire de la Fontaine. P.:1970. S.86

[3] Радциг С.И. История древнегреческой литературы.М.: Высшая школа, 1982, с.30-31

[4] Геродот. История. Перев.и пример. Г.А.Стратановского. М.:Ладомир,2001.

isə didaktik ünsür ön plana çıxır[1].

Hər halda hər bir təmsil əsasən üç hissədən –nəqli, təsviri və əxlaqi hissələrdən ibarət olur. Birinci hissədə insanın, heyvan və ya bitkinin məlum bir hekayəti nəql olunur. İkincidə konkret bir hadisə və fakt təsvir edilir. Üçüncüdə isə ibrətamiz və ya əxlaqi xarakterli bir nəticə çıxarılır. Hər üç halda müəlliflərin fərqli baxışlarından və münasibətlərindən asılı olaraq mühüm fərqlər də üzə çıxa bilər.

Bu fəslin ikinci yarımfəslində Şərq təmsilinin tarixi tədqiq edilir. Məlumdur ki, Qədim şərqin bəşər mədəniyyətinə bəxş etdiyi töhfələr çoxdur.Şərqin əfsanə və rəvayətləri, dastan və əsatirləri bu məkanın çox qədimdən sivilizasiya, mədəniyyət mərkəzləri yaratdığını göstərir.Qədim Şumer və akkadların, assurların və xettlərin, misirlilərin və ərəblərin , türklərin və iranlıların, hindlilərin və çinlilərin yaratdıqları sərvətlər sırasında söz abidələri, mənəvi sərvətləri də vardır.

Şərqin düşüncə tərzi özünəməxsusdur. Fikir və obraz baxımından Şərqin yaratdığı söz sərvətləri orijinal xarakterə malikdir və şərq bədii təxəyyülünün məhsuludur. Əslində öz dərd-sərini, qayğı və düşüncələrini, etiraz və şikayətlərini məcaz və eyhamla, zarafat və kinayə ilə ifadə edən Şərq insanı misilsiz ədəbi dəyərlər yaratmışdır. Bu ədəbi dəyərlər sırasına əsatir və dastanlar daxil olduğu kimi, alleqoriya və təmsil də daxildir. Bu sahədə şərqlilər Avropadan geri qalmamışlar[2].

Minilliklərin dərinliyinə nəzər saldıqda görürük ki, qədim Şumer və Babil-Assuriya dastanlarındakı təmsilvari hekayətlərin yaşı Ezop təmsillərinin yaşından qat-qat çoxdur[3].

Təmsil süjetlərinə Xaqani, Şirvani, Nizami Gəncəvi, Fəridəddin Əttar, Cəlaləddin Rumi, Əlişir Nəvai və b. görkəmli şəxsiyyətlərin yaradıcılığında da rast gəlinir.

Orta əsrlərdə İranda və digər qonşu ölkələrdə böyük şöhrət tapmış "Qabusnamə" əsərində də çoxlu təmsilvari hekayətlər vardır. R Sultanovun yazdığına görə, orta əsr müəllifləri Sənai Qəznəvi, Məhəmməd Oufi, Qazi Əhməd Qəffari, Nizami Gəncəvi, Fəridəddin

---

[1] Herder J.G. Sanmtliche werke(Aecop und lessinq) hg. B.Suphan Bd.1, 1887, s.426

[2] Alleqoriya və təmsillər. Tərt.ed. M.Sultanov . Bakı: Azərnəşr, 1988. s.4-5

[3] Емельянов В.В. Древний Шумер. Очерки и культуры. СПб.: Петербургское Востоковедение.2001.с.167- 177

Əttar, İbn İsfəndiyar, Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Məcdəddin Məhəmməd Hüseyni Məcdi, Məhəmməd Bağır Mühəqqiq Səbzəvari və b. öz əsərlərində “Qabusnamə”dən geniş istifadə etmişlər”[1] .

Birinci fəslin üçüncü yarımfəslində Avropa təmsilinin tarixi tədqiq edilir. Avropa təmsilinin məhz yunan ədəbiyyatından qaynaqlanması təsadüfi deyil. Doğrudur bu ədəbiyyatda bir neçə təmsilin müəllifliyini Hesioda(eradan əvvəl VIII əsr) və Stezaxora(eradan əvvəl VI əsr) aid etsələr də, ən məşhur təmsil ustası Ezop olmuşdur [2]. Onun təmsilləri nəsrlə yazılmışdı və qeyri-adi dəqiqliyə, aydınlığa, sadəliyə və baməzəliyə malik idi. Bu təmsillər o dövrün mədəni aləmində çox tez yayılmış, əsrlər boyu işlənmiş, indi də müəyyən dəyişikliklərlə və tərcümələrdə müasir oxucuların ixtiyarına keçmişdir[3].

Təmsillər yunan ədəbiyyatından Suriya, ərəb, yəhudi, ingilis, fransız və s. xalqların ədəbiyyatlarına da keçmişdir. Bu təmsillər yunan gerçəkliyində uzun müddət ağızdan-ağıza gəzmiş, nəhayət eradan əvvəl təxminən 300-cü ildə ilk dəfə olaraq Talerili Dmitri tərəfindən toplanmışdı. Eramızın I və ya II əsrində Babri adlı bir nəfər nəsrlə olan bu təmsilləri şeirə çevirmiş, IX əsrdə isə magistr İqnati Ezopun təmsillərini dörd misralıq qısa şeirlər kimi işləmişdir. Bizans mühitində təmsil daha artıq dərəcədə didaktik xarakter kəsb etmiş, bununla da təmsilin təsviri xarakteri zəifləmişdir. Rahib Maqsim Rlanud tərəfindən XIV əsrdə qələmə alınmış bir topluda bunu aydın görmək mümkündür[4] .

Qeyd etmək lazımdır ki, Avropanın bir çox qədim təmsil topluları (latın təmsillərinin yeni toplusu, Bern Kodeksi, Mari de Frens adlandırılan Riqoli Kodeksi, italyan Ezopu, Nikolay Perqamentin toplusu, Bonerin təmsillərinin toplusu və s.) məhz XIX əsrdə çap olunmuşdur. Bunların sırasında Ezop təmsillərinin müxtəlif dillərdə variantları, müxtəlif iqtibas variantları və s.də vardır. Orta əsrlərin təmsil müəllifləri sırasında Martin Küferin,

---

[1] Qabusnanmə.Tərt.ed. R.Sultanov. Bakı.Azərnəşr.1984. s.9

[2] Езор.Басни.Перев. М.Л.Гаспарова. М.:АСТ Москва,2007.с.3

[3] Торшилов Д.О. Басни Езопа//Энцик.миров.литер.СПб Невская книга.2000.с.29-30

[4] Dithmar R.Die Fabel.Geschichte. Struktur. Didaktik. Raderborn. München.1982.214

Lodoviko Quiççardininin, Jil Korrozeninin və başqalarının da adları keçir.

İntibah dövründə təmsil və təmsilvari əsərlər çox nəşr olunmuşdur. Bu əsərlərin çoxu latın, alman, fransız, ingilis, çex, polyak və s. dillərdədir. Təmsilə maraq XVI-XVII əsrlərdə də davam etmişdir.

XVII əsrin ən görkəmli təmsil ustası Lafontendir (1621-1695). Jan Lafonten yaradıcılığa dram əsərləri ilə başlasa da, ballada, poema, oda və s. yazmış, görkəmli təmsil ustası kimi məşhurlaşmışdır. 1668-1679-cu illərdə 11 cilddən ibarət təmsillərini nəşr etdirmiş, 1694-cü ildən bu silsilədən sonuncu kitabını tamamlamışdır [1]. Lafonten klassisizmə özünəməxsus şəkildə yanaşmış, xalq müdrikliyindən və folklor ənənəsindən faydalanmış, sadə adamların düşüncəsinə diqqət yetirmiş, məcazlardan, kinayəli gülüşdən yetərincə istifadə etmişdir.

XVIII əsr də təmsil yaradıcılığı ilə zəngindir. Bu əsrə məxsus məşhur təmsilçilərdən Selomon Frankin, Ridererin, Riççinin, Farmiyerin, Trombellinin, Landinin, Feleçinin Qraxtın (əksəriyyəti italyandır) adlarını çəkmək olar.

Slavyan xalqlarında təmsil əsasən üç xalqda, daha dəqiq desək— çex, polyak və rus ədəbiyyatında daha geniş yayılmışdır. İlk əvvəl biz onu çex ədəbiyyatında görürük.

Polşa ədəbiyyatında təmsilin ilk nümayəndələri Naqlovitsdən olan Rey və Babros Paprotski olmuşlar (XVI əsr). 1731-ci ildə knyaz Yablonovski də öz təmsil toplusunu nəşr etdirmişdir.

Rus ədəbiyyatında təmslin çox da qədim tarixi yoxdur. Təmsil rus ədəbiyyatına Şərq ədəbiyyatlarından keçmişdir. Şərqdən qaynaqlanan "Bidpeyin təmsilləri" və ya "Stefanit və İxnolat" Bizans vasitəsilə Cənubi Slavyan ədəbiyyatına keçmiş, XV-XVI əsrlərdə rus kitab ustalarının tez-tez müraciət etdikləri bir abidə olmuşlar.Təmsil janrı N.İ.Krılovun yaradıcılığında öz yüksək mərhələsinə çatmışdır. Onun təmsilləri o qədər orijinal, xalq dili və baməzəliyinə görə o qədər özünəməxsusdur ki, öz vaxtında bütün Rusiya ədədi-ictimaiyyətinin diqqətini cəlb etmiş və o, ən oxunan müəlliflərdən biri olmuşdur. İ.Krılov poeziyanın bu növünü daha da

---

[1] Пасхарь Н.Т.Басни Лафонтена// Энцик.миров.лит.СПб.:Невская книга, 2000. С.31

mükəmməlləşdirmiş, ədəbi dili xalq dilinə yaxınlaşdırmışdır.

Dissertasiyanın **"Milli təmsil janrının yaranması "** adlanan ikinci fəsli iki yarımfəsildən ibarətdir.

**"Azərbaycan təmsilinin təkamül özəllikləri"** adlanan birinci yarımfəslində Azərbaycan təmsilinin dərin tarixi kökləri, zəngin ədəbi ənənələri araşdırılır.

Azərbaycanda təmsil yaradıcılığının tarixi köklərindən danışarkən ilk növbədə, xalq təmsil və nağıllarını qeyd etmək lazımdır. Bu nağıllarda xeyir qüvvələrlə şər qüvvələrin qarşı-qarşıya gəlməsi prosesi uşaq qəlbini həyəcanlandırmaq üçün yaxşı material verir.

Folklora məxsus bu keyfiyyətlər bütün dövrlərdə yazılı ədəbiyyatın diqqət mərkəzində durmuş, ən müvəffəqiyyətli və uğurlu əsərlərdə xalq yaradıcılığından axıb gələn xəlqi ruh əks olunmuşdur.

Ağızdan-ağıza keçərək əsrlər boyu yaşayn şifahi xalq yaradıcılığının bir hissəsini məhz xalq təmsilləri təşkil edir. Bu təmsillərdə sıravi insanın arzusu, istəyi əks olunur, əməyin səmərəsi, biliyin faydası kimi fikirlər aşılanır.

Azərbaycan yazılı ədəbiyyatında təmsilə bənzər ilk nümunələri Xaqani Şirvani yaratmışdır. O, "Qara daşın tərifi", "Zəmzəm quyusunun tərifi" və s. əsərlərində alleqorik ifadə üsulundan istifadə etmişdir. "Eşşəyin toya dəvət edilməsi" hekayəti isə onun seçilmiş əsərlərinə təmsil adı ilə daxil edilmişdir[1].

Nizami Gəncəvi də bir neçə təmsilvari hekayət yaratmışdır. Şairin yaradıcılığında bu janrın bir neçə nümunəsinə rast gəlirik. Bunlar əsasən "Şirlər xəzinəsi" poemasında toplanmış aşağıdakı əsərlərdir: "Nüşirəvanla vəziri və bayquşların söhbəti", "Ovçu ilə tülkünün hekayəti", "Oğru və Tülkü hekayəti", Bülbül və Qızılquşün hekayəti"[2].

XIX əsrin A.Bakıxanov, S.Ə.Şirvani və b. görkəmli sənətkarlarının yaradıcılığında Nizami irsinin təsiri aydın duyulmaqdadır. Xüsusilə A.Bakıxanovun "Mişkatül-ənvar" əsərindəki kiçik mənzum hekayət təmsilləri xatırladır[3].

---

[1] Xaqani Şirvani. Seçilmiş əsərləri: Bakı. Yazıçı, 1987.s.402-403

[2] Gəncəvi Nizami. Sirlər xəzinəsi. Bakı. Maarif, 2002.s.26,40,43,72

[3] Qasımzadə F. XIX əsr Azərb.ədəbiyyatının tarixinə dair tədqiqlər. Bakı. APİ. 1960. s.49

Orta əsrlər Azərbaycan ədəbiyyatında uşaq ruhuna yaxın əsər kimi M.Füzulinin "Söhbətül əsmar" əsəri yadda qalır. Təkcə alleqorik formada yazılması ilə deyil, həm də bütöv məzmunu, obrazlar aləmi ilə bu əsər uşaq ruhuna yaxındır.[1]

XIX əsrdə Azərbaycan ədəbiyyatında təmsil janrının inkişafına rus ədəbiyyatının müəyyən təsiri olmuşdur. İ.A.Krılovun əsərlərinin Azərbaycan dilinə tərcümə edilməsi orijinal təmsillər yazmaqda Azərbaycan müəlliflərinə böyük köməklik etmişdir.

Yeni dövrdə yaranan realist-demokratik cərəyanın banilərindən olan A.Bakıxanovun Krılovdan tərcüməsi buna parlaq misaldır. Krılovun təmsillərindəki zəngin yumor, satira, tənqid və demakratik ruh onda yüksək heyranlıq hissi doğurmuşdur.[2]

Q. Zakir Azərbaycan ədəbiyyatı tarixində özünün çoxcəhətli yaradıcılıq fəaliyyətilə tanınır. O, həm klassik, həm də xalq şeiri üslubunda yazan şair, qüvvətli satirik, təmsilçi və mənzum hekayənəvisdir. "Onu öz dövrünün realist şairi kimi tanıdan və ədəbiyyat tariximizdə ona daha şərəfli mövqe qazandıran"[3]qüvvətli ifaçı pafosa malik satiraları olsa da, Zakir təmsilçi kimi də böyük məharət sahibi idi.

Q.Zakirin yaradıcılığı XIX əsrin birinci yarısında Azərbaycan uşaq poeziyasının az-çox əldə etdiyi nailiyyətlərin daşıyıcıçıdırsa, S.Ə.Şirvani əsrin ikinci yarısında bu poeziyanın təmsilçisi olmuşdur. Uşaq şeirinin tarixi inkişafı mənasında Q.Zakirin yaradıcılığı XIX əsrdə irəliyə doğru atılmış ilk addım idisə, S.Ə.Şirvaninin yaradıcılığı ikinci və daha uğurlu addım hesab edilməlidir. Abbasqulu ağa Bakıxanov və Qasımbəy Zakirlə başlayan yeni təmsilçilik Seyid Əzim Şirvaninin yaradıcılığında mərhələyə yüksəldi. F.Köçərlinin dediyi kimi, "Azərbaycan şairlərindən heç birisi mərhum Hacı Seyid Əzim yazdığı qədər də əsərlər vücuda gətirilməyibdir. Onun hər qisim kəlamı vardır və bir-birindən gözəl və dilpəzirdir".[4]

S.Ə.Şirvaninin təmsillərində şifahi xalq ədəbiyyatı ənənələri qabarıq nəzərə çarpır. O, bir təmsilçi kimi klassik Azərbaycan

---

[1] Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı.Azərnəşr, 1958,s.176
[2] Qasımzadə F. Abasqulu ağa Bakıxanov. Bakı. Uşaqgəncnəşr, 1956.s.126
[3] Məmmədov K. Qasım bəy Zakir. Bakı. Azərb.EA nəşri, 1957.s.197
[4] Köçərli F. Azərbaycan ədəbiyyatı. II cild. Bakı.Elm, 1981.s.35-36

şairləri Xaqani, Nizami, Füzuli, A.Bakıxanov və Q.Zakirin təmsil sahəsində ən yaxşı ənənələrini də davam və inkişaf etdirmiş, ideya-bədii cəhətdən dolğun əsərləri ilə milli təmsil və təmsilnəvisliyi daha da zənginləşdirmişdir.

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli **"Uşaq təmsilinin yaranması tarixinə bir nəzər"** adlanır. Bu yarımfəsildə Azərbaycan uşaq təmsilinin yaranma və təşəkkül tarixi nəzərdən keçirilir.

Həm təşəkkülünün ilk dövrlərində, həm də sonrakı mərhələlərdə Azərbaycan uşaq ədəbiyyatı nümunələri daha çox iki yolla inkişaf etmişdir: 1) Ana dili dərslikləri vasitəsiylə; 2) Uşaq mətbuatı orqanlarında çap olunmaq yolu ilə.

Azərbaycan uşaq ədəbiyyatının təşəkkülü, formalaşması və inkişafı tarixində ana dili dərsliklərinin mühüm rolu olmuşdur. Uşaqlar üçün məxsusi qəzet və jurnalların mövcud olmadığı illərdə uşaq ədəbiyyatı, o cümlədən də təmsil nümunələri əsasən ana dili dərsliklərində, qismən də qiraət kitablarında çap olunur və öz ünvanına –uşaqlara çatdırılırdı.

Rus dilində açılmış qəza məktəblərindən başlayaraq XIX əsrin 70-80-ci illərində yaranan «Üsuli-cədid» və «Rus müsəlman məktəbləri» kimi yeni tipli, dünyəvi məktəblərdə Azərbaycan dilinin tədrisi yeni tipli uşaq ədəbiyyatının yaranması və inkişafına ciddi təkan verdi. XIX əsrin birinci yarısında A.Bakıxanov, Q.Zakir, M.Ş.Vazeh kimi ilk maarifçilərin tərbiyəvi mahiyyətdə olan mənzum hekayə və təmsilləri, öyüd və nəsihətləri, habelə uşaqların oxuması üçün hazırladıqları tədris vəsaitləri həmin ehtiyacla bağlı yaranmışdır.

XIX əsrin sonu XX əsrin əvvələrində nəşr olunan elə bir dərslik müəllifinin adını çəkmək mümkün deyildir ki, o, S.Ə.Şirvaninin bu sahədəki ənənələrindən bəhrələnməmiş olsun. A.O.Çernyayevski və S.Vəlibəyovun "Vətən dili", R.Əfəndiyevin "Uşaq bağçası" və "Bəsirətül-ətfal" dərsliklərindən başlamış Azərbaycan müəllimlərinin ilk qurultaylarının (1906-1907-ci illər) tövsiyələri əsasında hazırlanmış ana dili dərsliklərinə qədər bütün dərslik və tədris vəsaitlərində ustad şair-pedaqoqun təcrübəsi yaxşı nümunə kimi nəzərə alınmışdır.

Azərbaycan uşaq ədəbiyyatının XIX əsrin 80-ci illərindən 1905-ci ilə qədərki təxminən 25 illik bir dövr ərzində inkişafını

ləngidən əsas səbəblərdən biri uşaqlar üçün yazılmış əsərlərin nəşri ilə bağlı ortaya çıxan idi. Uşaqlar üçün məxsusi dövrü mətbuat orqanlarının olmaması, yazılmış dərsliklərin və dərs vəsaitlərinin məhdud sayda və həm də böyük çətinliklərdən sonra nəşrinin baş tutması uşaq ədəbiyyatının sürətli inkişafına maneçilik törədirdi.

1905-1907-ci illər inqilabi dövründə uşaqlar üçün ayrıca mətbuat orqanlarının nəşrə başlaması, mətbuat və nəşriyyat işlərinin canlanması, ana dilində yeni dərsliklərin və qiraət kitablarının nəsr olunması uşaq ədəbiyyatı sahəsindəki bir sıra çətinlikləri aradan qaldırdı. Azərbaycan uşaq ədəbiyyatı özünün yeni və yüksək inkişaf mərhələsinə qədəm qoydu.

Azərbaycan uşaq mətbuatında əməkdaşlıq edən, öz əsərləri ilə uşaq jurnallarının səhifələrində çıxış edən müəlliflər kollektivinin tərkibi çox müxtəlif idi. Burada M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, S.S.Axundov, R.Əfəndiyev kimi uşaq ədəbiyyatımızın əsas yaradıcıları ilə yanaşı, S.M.Qənizadə, F.Köçərli, A.Divanbəyoğlu, M.Hadi, H.Cavid, Ə.Nəzmi və b. tanınmış yazıçılar, habelə müəllim və maarif xadimləri, gənc ədəbi qüvvələr, ədəbiyyat həvəskarları da iştirak edirdilər.

Bu baxımdan M.Ə.Sabirin ədəbi-tarixi fəaliyyəti diqqəti xüsusilə çəkir. 1907-1909-cu illər Sabirin uşaq ədəbiyyatı sahəsində coşqun yaradıcılıq illəri olmuşdur.

Nizaminin didaktik mənzum hekayələrinin, Füzulinin alleqorik əsərlərinin, Zakirin təmsillərinin, Bakıxanovun yaradıcılığındakı epik əsərlərin heç bir konkret oxucu ünvanı olmamışdır. Bu və bu tipli əsərlər hamı üçün nəzərdə tutulmuşdur və onlar istər böyüklər, istərsə də uşaqlar üçün şərikli sərvətdir. Həmin şərikli sərvət içərisində kiçiklər üçün faydalı, yararlı nümunələr də az olmamışdır. Bunlar uşaqlar üçün gözəl oxu materialıdır.

M.Ə.Sabirin, A.Səhhətin, A.Şaiqin, S.S.Axundovun uşaqlar və yeniyetmələr üçün qələmə aldıqları əsərlər XX əsr ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur. Onlar öz sələflərinin − Xaqani, Nizami və Füzulidən, A.Bakıxanov və S.Ə.Şirvaniyə qədərki sənətkarların yaradıcılığını, habelə şifahi xalq ədəbiyyatı ənənələrini dərindən öyrənmiş, milli uşaq ədəbiyyatının klassikləri kimi şöhrətlənmişlər.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan poeziyasının mənzum hekayət və nağıl, öyüd və nəsihət, şərqi və digər janrları ilə yanaşı təmsil janrı da sürətli inkişaf yoluna düşmüşdür.

Dissertasiyanın **“ Postsovet dövründə təmsil yaradıcılığı”** adlanan üçüncü fəsli iki yarımfəsildən ibarətdir. **“Müasir Azərbaycan təmsili və onun təmsilçiləri”** başlıqlı birinci yarımfəsildə qeyd edilir ki, sovet ədəbiyyatında alleqorik əsərlərə, eləcə də təmsillərə münasibət birmənalı olmamışdır. Sovet ideologiyası xeyli müddət alleqorik əsərlərə laqeydliklə yanaşmış, bu qəbildən olan əsərlərin məna və əhəmiyyətini layiqincə qiymətləndirməmişdi. Buna görə də Sovet dövrünün əvvəlki mərhələsində alleqorik yazıçılar olduqca azdır və ümumən yox dərəcəsindədir.

Yalnız 1950-ci illərdən başlayaraq bu qəbildən olan əsərlərə önəm verilməyə başlanmış, satirik və yumoristik əsərlərin çapına və təbliğinə müəyyən qədər yer ayrılmışdır. 1952-ci ildən "Kirpi" jurnalının çapı da bu işə müəyyən qədər təkan vermişdi. Sonralar artıq qəzet və jurnalların satira və yumor guşəsində müstəqil olaraq alleqorik əsərlərin, xüsusilə təmsilvari əsərlərin və təmsillərin çapına diqqət artırılmışdı.

Azərbaycan sovet poeziyasının görkəmli nümayəndələrinin yaradıcılığında da alleqorik səpkili əsərlərə və təmsillərə təsadüf olunur. Məsələn, M.Müşfiqin,M.Rahimin, M.Dilbazinin, Mir Mehdi Seyidzadənin və b. təmsillərində cəhalət, tənbəllik, lovğalıq, tüfeylilik və s. mənfi sifətlər tənqid edilir.

Məlumdur ki, satira yaradıcılığı Azərbaycan sovet ədəbiyyatının diqqət mərkəzində olmuşdur. N.K.Sanılı, S.Vurğun, M.Dilbazi, M.Müşfiq və b. sənətkarların yaradıcılığında təmsil janrının nümunələri daha geniş yer tutmuşdur.

Müasir Azərbaycan ədəbiyyatında təmsilin janr xüsusiyyətlərini müəyyənləşdirmək də mühüm əhəmiyyətə malikdir. Belə ki, bəzi sənətkarlar təmsil adı altında alleqoriyaya müraciət edirlər. Çünki təmsillə alleqoriya arasında kəskin fərq yoxdur. Onların birinci ortaq xüsusiyyəti bəşəri problemləri bitki və heyvan obrazları, ümumən başqa cizgilərlə verməkdirsə, digər bir xüsusiyyət onların süjetli poeziyaya aid olmasıdır. Haqlı olaraq qeyd edilir ki, “süjetli lirika şairə yalnız qəhrəmanı təsvir etmək, onun obrazını yaratmaq imkanı vermir: bu forma eyni zamanda, şairin öz əhvali-ruhiyyəsini, təsvir olunan predmetə münasibətini konkret bir surətdə ifadə etmək üçün də şərait yaradır”.[1]

---

[1] Azərbaycan sovet ədəbiyyatı tarixi. Bakı. Azərb.EA nəşriy. 1967.s.191

Bu fikir eyni zamanda alleqoriya və təmsil formasında yazılan əsərlərə də aid edilə bilər. Demək olar ki, bu formada yazılan əsərlərin əksəriyyəti süjetli poeziya nümunəsidir. Təbii ki, bu formada lirik səciyyəli alleqorik əsərlərə də rast gəlmək olur. Məsələn, xalq şairi Rəsul Rzanın əllər, qollar, gözlər, ayaqlar, dodaqlar, burunlar, qulaqlar kimi mənalandırdığı obrazlar da poetik alleqoriyanın özünəməxsus şəkli kimi qələmə alınmışdır. Bir çox halda "fikir poeziyası" deyə adlandırılan R.Rza poeziyasının bu cür təzahürləri alleqoriyanın ənənəvi təhkiyə tipini deyil, intellektual tipini ayırd etməyə imkan verir.

Müasir Azərbaycan təmsilində müəlliflər və adlar çox olsa da, bu sahədə Hikmət Ziya qədər əməli iş görmüş şair tapmaq çətindir. Təmsil yaradıcılığı sahəsində 40 ildən artıq fəaliyyət göstərən H.Ziyanın təmsilləri ədəbi ənənə və novatorluq baxımından yeni ədəbi təcrübə kimi diqqəti cəlb edir.Doğrudur, H.Ziya satirik şeirlərlə yanaşı lirik, mövzu və şəkil baxımından müxtəlif olan şeirlər də yazmışdır. Lakin o, bütün istedadını əsasən təmsilə vermiş, bu janrı yeni bir səviyyəyə qaldırmışdır.

Təkcə heyvan və bitki aləminin təmsilçiləri deyil, həyatda, məişətdə rast gəlinən əşyalar da H.Ziya müdrikliyi və məharəti sayəsində yeni satirik obrazlara çevrilir, həyatda rast gəldiyimiz çeşid-çeşid mənfilikləri ifşa edir.

Sovet dövründə təmsil yaradıcılığı ilə hələ 60-cı illərdən müntəzəm məşğul olanlardan biri də Mikayıl Məxfi olmuşdur. Mikayıl Hüseyn oğlu Əliyev bir neçə təmsil kitabını nəşr etdirmişdir. Onun ilk kitabları "Bələləri də var" (Bakı , 1976) və "Mənəm, sənsən?" (Bakı, 1980) toplularıdır.

Bu dövrdə peşəkar təmsil yaradıcılığı ilə məşğul olan ədəbi simalardan biri də Mərkəz Quliyevdir (Qacardır). Yaradıcılığı ərzində M.Quliyevin 10-dan artıq kitabı, on minə yaxın təmsili işıq üzü görmüşdür. 1970-ci illərdən yaradıcılığa başlayan şair əsasən qısa təmsil janrında fəaliyyət göstərir. Bu təmsillərdə tematik genişlik aydın görünməkdədir. Əsasən qısa təmsil nümunələri yaradan M.Quliyev öz mövqeyini kiçik, yığcam dördlüklərdə bildirir.

Tədqiqatçı Mahmud Mahmudov «Mərkəz Qacarın təmsil dünyası» adlı əsərində onun təmsillərini təhlil edərək yazır: «Mərkəz Qacarın bəzi təmsilləri sanki sözlə çəkilmiş karikaturalardır. Başqa şəkildə demiş olsaq, onlar gözlərimiz önündə canlı tablolar yaradır,

rəssamın fırçasına, qida fantaziyasına hazır mövzu verir»[1].

Müasir Azərbaycan təmsili və alleqoriyasının inkişafını poeziyamızın son yüz ildəki ümumi inkişafından kənarda təsəvvür etmək qeyri-mümkündür. XX əsr Azərbaycan ədəbiyyatı, məlum olduğu kimi, istər yaradıcılıq metodları, istər mövzu-tematik rəngarəngliyi, istərsə də janr-üslub baxımından zəngin və əhatəlidir.

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımbölməsi **"Uşaq təmsilinin inkişafı çağdaş mərhələdə"** adlanır. İkinci fəsildə Azərbaycanda təmsilin müstəqil bir janr kimi hələ XIX əsrin sonu XX əsrin əvvəllərində yarandığını, bu janrın əsasən uşaq təmsili kimi formalaşdığını və uşaq ədəbiyyatının ümumi inkişafında xüsusi mövqe tutduğunu qeyd etmişdik. XX əsrin 20-30-cu illərində M.Rəfili, M.Arif, H.Araslı və b. tənqidçi ədəbiyyatşünaslar "çocuq ədəbiyyatı"nı inkişaf etdirmək zərurətini dəfələrlə qeyd etmişdilər.

Lakin o zaman uşaq ədəbiyyatı bir anlayış və bədii reallıq kimi ədəbiyyat tarixlərində lazımı yer tuta bilmədi. Buna səbəb "uşaq ədəbiyyatı" istilahının ədəbi tənqid və ədəbiyyatşünaslıqda bir fenomen kimi qavranmaması, dərk edilməməsi idi. Qeyd etmək lazımdır ki, indi də bu anlayışın həm tərəfdarları, həm də əleyhdarları mövcuddur.

Keçən əsrin 60-70-ci illərindən başlayaraq Azərbaycanda uşaq ədəbiyyatına geniş tədqiqatlar həsr edildi, əhatəli və sanballı tədqiqat işləri yazıldı[2].

Uşaq alleqoriyası və təmsili sahəsində İlyas Tapdığın, Hikmət Ziyanın, Tofiq Mahmudun, Zahid Xəlilin, Teymur Elçinin, Fikrət Sadığın və b. şeirlərini xüsusi qeyd etmək lazımdır. Bu şeirlərdə həm uşaq ədəbiyyatının tələbləri, həm də alleqorik əsərlərin tələbləri gözlənilmişdir. Həmin əsərlər vətən, təbiət, ana və ailə mövzularının

---

[1] Mahmudov M.Mərkəz Qacarın təmsil dünyası. Azərb.Ensiklop. Bakı. 2002.s.21

[2] Məmmədov Ə. Azərbaycan uşaq ədəbiyyatı. ("Dəbistan", "Rəhbər" və "Məktəb" jurnalları əsasında)
Bakı. Elm, 1977. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı.Maarif, 1984. Халилов З. Детская литература Азервайджана. М.:Детская литература, 1987.Məmmədov X. XIX əsr Azərbaycan uşaq ədəbiyyatı. Bakı. ADPU, 1992

daha diqqətlə işlənməsi ilə seçilir və eyni zamanda ayrı-ayrı obrazlara xas zahiri və xarakter təsvirlərin təqdimilə əlamətdardır.

Sovet dövründə Azərbaycan uşaq ədəbiyyatının inkişafı ilə bağlı istər partiya və dövlət xətti ilə, istərsə də Azərbaycan Yazıçılar İttifaqının xətti ilə keçirilmiş tədbirlər də diqqəti cəlb edir.

Uşaq ədəbiyyatının yaradıcılıq problemlərinin ilk dəfə olaraq müzakirələrə çıxarılması Azərbaycan yazıçılarının II qurultayına təsadüf edir (15-18 aprel 1954). Burada S,Rəhimovun, M.Hüseynin, S.Rüstəmin, İ.Əfəndiyevin məruzələri ilə yanaşı Qılman Musayevin "Azərbaycan uşaq və gənclər ədəbiyyatı" adlı məruzəsi də dinlənilmişdi. Artıq növbəti il iyunun 24-də Azərbaycan Yazıçılar İttifaqının uşaq ədəbiyyatına həsr olunmuş geniş plenumu keçirilmiş və orada yazıçı M.Rzaquluzadə uşaq ədəbiyyatının vəziyyəti haqqında məruzə etmişdi.

Sovet dövründə sırf uşaq ədəbiyyatı ilə məşğul olan M.Rzaquluzadə, X.Əlibəyli, İ.Tapdıq, T.Elçin, Z.Xəlil, T.Mahmud və b. alleqoriya və təmsil yaradıcılığı ilə ardıcıl surətdə məşğul olmuşlar.

Təmsilin təbliğində uşaq mətbuatının rolunu qeyd etmişdik. Onu da əlavə etmək olar ki, sovet dövründə, xüsusən 60-cı illərdən sonra "Göyərçin" uşaq jurnalı, "Azərbaycan pioneri" qəzeti, müstəqillik dövründə isə "Savalan", "Nəvə", "Tumurcuq", "Bala dili" kimi qəzet və jurnallarda uşaq ədəbiyyatı nümunələri içərisində uşaq təmsilləri də çap edilmişdir.

Təmsilin, eyni zamanda uşaq təmsilinin son yüksəlişi keçən əsrin 90-cı illərinə təsadüf edir. Keçən əsrin 80-90-cı illərindən başlayaraq Məstan Əliyev (Günər), Məmməd Aslan, Qaçay Köçərli, Məmməd Namaz, Qəşəm İsabəyli, Rafiq Yusifoğlu, Aləmzər Əlizadə və b. müəlliflər uşaq ədəbiyyatının inkişafı sahəsində fəal çalışırlar. Son illərdə uşaq ədəbiyyatının ideya-bədii axtarışlarında istər məzmun, istərsə də sənətkarlıq baxımından yüksəliş müşahidə olunur, müstəqillik dövrünün həqiqətləri, milli özünüdərk, milli irsə və folklora qayıdış kimi mövzularla bağlı əlaqədar yeni mətləb və motivlər ortaya çıxır.
.

**"Nəticə"**də dissertasiyanın əsas müddəaları ümumləşdirilir və tədqiqata yekun vurulur. Burada xüsusi olaraq vurğulanır ki, təmsil janrının keçdiyi təkamül yoluna nəzər saldıqda belə nəticəyə gəlmək olur ki, klassik təmsilçilərin əsərləri təmsil ədəbiyyatımızın sonrakı

inkişaf mərhələlərinə güclü təsir etmiş, aktuallığını, əhəmiyyətini indi də itirməmişdir.

Kəskin və həyatı konflikt, yüksək şeriyyət, lirik və epik məqamların vəhdəti, zəngin xalq hikməti ilə dolu olan gözəl dil həm klassik, həm də müasir təmsillərimizin bədii məziyyətləridir. Təmsil yazan şairlərimiz, hər şeydən əvvəl kim üçün, nə üçün yazdığını müəyyənləşdirmiş, uşaqların qəlbinə yollar axtarıb tapmış və sözün həqiqi mənasında əsil təmsilnəvis kimi yüksəlmişdir.

Azərbaycan yazılı ədəbiyyatında Nizami, Füzuli, A.Bakıxanov ilə təməl daşları qoyulan, sonralar Q.Zakir, S.Ə.Şirvani yaradıcılığında davam və inkişaf etdirilən təmsil janrı M.Ə.Sabir, A.Şaiq, R.Əfəndiyev, A.Səhhət kimi sənətkarların yaradıcılığında yeni inkişaf mərhələsinə yüksəlir. Adları çəkilən sənətkarlar ideya-bədii cəhətdən dolğun təmsilləri ilə Azərbaycan uşaq ədəbiyyatı xəzinəsini zənginləşdirmişlər.

Sovet və postsovet dövründə təmsil və ümumən uşaq təmsili sahəsində çox ciddi işlər görülmüş, maraqlı və əsrarəngiz bədii nümumnələr yaradılmışdır. X.Əlibəyli, T.Mahmudov, T.Elçin, İ.Tapdıq, T.Mütəllimov, M.Əliyev (Gülər) və b. Şairlərin yaradıcılığı bu baxımdan diqqətə layiqdir. Təmsil yaradıcılığı ilə peşəkar şəkildə məşğul olmuş H.Ziyanın zəngin ədəbi irsi bütünlükdə ədəbiyyatımızın orijinal səhifələrindən biridir.

Ölkəmizdə uşaqların sağlam tərbiyəsi, onların hərtərəfli inkişafı, şüurlu, fəal qurucular kimi yetişmələri ciddi dövlət işi, xalq işidir. Elə buna görə də gənc nəslin tərbiyəsi dərin elmi əsaslar üzərində qurulur. Uşaq ədəbiyyatının gənc nəslə gözəl hisslər aşılamaq, onlarla kiçik yaşlardan zəhmətə sevgi, biliyə həvəs oyatmaq, onların düzgün inkişafının qayğısına qalmaq və s. kimi nəcib ənənələr hələ lap klassik ədəbiyyatımızdan başlayır. Nizami, M.Füzuli və A.Bakıxanovun yaradıcılığından uşaq ədəbiyyatına keçən nağıllar, alleqorik əsərlər, Qasımbəy Zakir və Seyid Əzim Şirvaninin yüksək insani keyfiyyətlər təbliğ edən, dövrün ictimai-siyasi hadisələrinə toxunan təmsilləri bu gün də öz əhəmiyyətini itirməmişdir.

Göründüyü kimi, ümumi ədəbiyyatımızla yanaşı onun ayrılmaz qolunu təşkil edənAzərbaycan uşaq ədəbiyyatının da tarixi çox qədimdir. Lakin onun məhsuldar dövrü XX əsrin əvvəllərinə - 1905-ci il inqilabından sonrakı illərə təsadüf edir. Məhz bu dövrdə

Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatında yeniliklər əmələ gəldiyi kimi, uşaq ədəbiyyatının yeni dirçəlişi üçün də müəyyən imkanlar yaranır.

Bu gün təmsillər, alleqorik əsərlər uşaqların fikrini dərinləşdirir, dünyagörüşünü genişləndirir, fantaziyasının inkişafına yardım edir. Təmsillərdə şər ilə xeyirin nadanlıq ilə mərifətin, qaranlıq ilə işığın, pislik ilə yaxşılığın, əsarət və azadlığın, tənbəllər və işgüzarlığın vuruşu, mübarizəsi nəticəsində ikincilər birincilərə qalib gəlir ki, belə mövzular uşaqlar üçün maraqlı və xeyirlidir.

Həyat sürətlə inkişaf edir, cəmiyyətimiz qarşısında yeni-yeni vəzifələr durur, yeni həyat konfiliktləri, yeni hadisələr meydana çıxır. Bütün bunlar şübhəsiz, poeziyamızda da öz əksini tapmalıdır. Bu gün ağrılı yerimiz olan torpaqlarımızın düşmən tapdağı altında qalması, mənfur qonşularımızın riyakarlığı şairlərimizin qarşısında yeni-yeni problemlər qoyur, yeni təmsillərin yaranmasına gətirib çıxarır.

Uşaqlar üçün gözəl təmsillər yazmaq son dərəcə vacibdir. Çünki, bu təmsillər canlı danışıq dilinə, dialoqlara əsaslandıqlarından uşaqların nitqinin inkişafına, təfəkkür tərzinin formalaşmasına ciddi təsir göstərir.

**Dissertasiya mövzusu ilə bağlı aşağıdakı məqalə və tezislər nəşr edilmişdir:**

1. Azərbaycan uşaq təmsilinin yaranması // "Risalə" araşdırmalar toplusu. № 4, Bakı, "Nurlan" nəşriyyatı, 2007, s. 95-104
2. Mikayıl Məxfi və Mərkəz Qacar yaradıcılığında təmsil // "Risalə" araşdırmalar toplusu. № 5, Bakı, "Nurlan" nəşriyyatı, 2008, s. 70-79
3. Azərbaycan poeziyasında Hikmət Ziya təmsillərinin rolu // "Risalə" araşdırmalar toplusu. № 6, Bakı, "Nurlan" nəşriyyatı, 2009, s. 80-88
4. Dünya və Azərbaycan ədəbiyyatında təmsilin inkişafı // "Varlıq" dərgisi (İran İslam Respublikası ), (31-ci il yay) H.Ş.1388 N153, s. 145-154
5. Müasir uşaq ədəbiyyatı və onun nümayəndələri // "Varlıq" dərgisi (İran İslam Respublikası ), (32-ci il, Yay və payız) H.Ş.1389,N157-158, s. 3-13
6. İlyasTapdıq yaradıcılığında uşaq alleqoriyası və təmsilləri // AMEA Humanitar və İctimai Elmlər seriyası. "Xəbərlər", s. 114-121
7. XXəsrin II yarısında Azərbaycan poeziyasında uşaq təmsilləri //

"Risalə" araşdırmalar toplusu. № 7, Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2011, s. 140-148

8 Müasir Azərbaycan poeziyasında təmsil, Azərbaycan xalqının milli özünütəsdiqində ədəbiyyat və mədəniyyətin yeri // Beynəlxalq konfransın materialları, Bakı, 29-30 noyabr, 2010, s. 170-173

9 Современная азербайджанская аллегория и ее представители // III Международная конференция, Пятигорский Государственный Лингвистический Университет, 14-17 апреля, 2010, с. 20

10."Avropa təmsilinin tarixindən"// Dil və ədəbiyyat. Beynəlxalq Elmi-Nəzəri jurnal. Bakı. 2012, s. 149-151.

11. Teymur Elçin yaradıcılığında uşaq təmsilləri:Azərbaycan Şərqşünaslıq elminin inkişaf yolları//Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları.27-28 iyun,2013.Səh 374-376

Аллахвердиева Маиля Гасанага гызы

# БАСНЯ В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ ХХ ВЕКА

## РЕЗЮМЕ

Диссертация посвящена жанру басни, которая во все времена занимала важное место в азербайджанской литературе. Автор приводит примеры из басен бессмертных Хагани, Низами, Физули, А.Бакиханова, К.Закира, С.А.Ширвани и других.

В диссертации также повествуется о представителях басенного жанра в мировой литературе, приводятся примеры из произведений вышеупомянутых поэтов. Автор повествует о превращении греческой, индийской, французской, русской, американской басни в общественно-политическую сатиру.

То же самое можно сказать и о творчестве поэтов-баснописцев Азербайджана таких, как М.А.Сабир, А.Саххат, А.Шаик и др. В баснях вышеперечисленных мастеров подвергаются острой критике несправедливость, произвол и подхалимство, выражаются прогрессивные социальные и нравственные идеалы.

В диссертации привлекает внимание изучение и оценка басни в детской литературе.

Авторы исследований в области азербайджанской детской литературы, такие, как Дж.Ахмедов, Г.Намазов, З.Халил и др. проделали огромную работу в области изучения басни в данном контексте, уделяя особое внимание важности басни как жанру, связанному с детской психологией.

В диссертации нашли отражение оценки авторов статьи и рецензии, посвященные книгам как отдельных мастеров-баснописцев, так и представителей детской литературы, где особое место уделяется характеристике басни, ее роли в современной литературе и критическому характеру басни.

Allahverdieva Maila Hasanaga kizi

# FABLE IN AZERBAIJANIAN POETRY OF THE XX CENTURY

## SUMMARY

The given research work is dedicated to the janre of fable which all the times takes an important place in Azerbaijani literature. The author gives the examples from the fables by such immortal poets as Khagani, Nizami, Fizuli, A.Bakykhanov, G.Zakir, S.A.Shirvani and etc.

The given research work also touches upon the representatives of the genre of fable in the world literature. The author gives the examples from the works of the above-mentioned poets.

M.Allahverdieva tells about the conversion of Greek, Indian, French, Russian, American fable into the social-political satire.

The some words can be said about the creative activity of the poets-fabulists of Azerbaijan, such as M.A.Sabir, A.Sahhat, A.Shaig and etc. The foregoing masters pointedly criticize torment, injustice, arbitrariness and bootlicking, skillfully express the progressive social and moral ideas in their fables.

The given research work attracts attention by the study and estimation of fable in children's literature. Such authors of the investigations at the sphere of Azerbaijani children's literature as J.Ahmadov, G.Namazov, Z.Khalil and etc. made the enormous work at the sphere of the study of fable in the given context, giving special attention to the importance of fable as a genre connected with children's psychology.

The given research work reflect assessment of authors of articles and reviews devoted to the books of mosters-fabulists as well as representatiwes of children's literature where the special place is given to the characteristics of fable, its role in modern literature and critical character of fable.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

**МАИЛА ГАСАНАГА кызы АЛЛАХВЕРДИЕВА**

# БАСНЯ В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ XX ВЕКА

**5716.01- Азербайджанская литература**

# АВТОРЕФЕРАТ

**диссертации на соискание научной степени доктора философии по филологии**

**Баку 2013**